# “Bebras” İnformatika və Alqoritmik düşüncə müsabiqəsinin qaydaları

Versiya: 3
Tarix: 15 oktyabr 2025

Təşkilat komitəsi tərəfindən təsdiq edilib.
Bu qaydalar 15 oktyabr 2025-ci ildən etibarən qüvvəyə minir və növbəti versiya dərc edilənədək qüvvədə qalır.”

---

1. Ümumi müddəalar
   - 1.1. Beynəlxalq “Bebras” İnformatika və Alqoritmik düşüncə müsabiqəsinin (bundan sonra **müsabiqə**) Azərbaycanda təşkili bu qaydalarla tənzimlənir.
   - 1.2. Müsabiqənin Azərbaycan üzrə təmsilçisi **ÖzünÖyrən MMC**-dir və müsabiqə ÖzünÖyrən MMC və tərəfdaş qurumların təşkilatçılığı ilə keçirilir.
   - 1.3. ÖzünÖyrən MMC Beynəlxalq “Bebras” Komitəsi (IBC) 02 Dekabr 2022-ci il tarixli qərarı ilə Azərbaycanda Milli “Bebras” Təşkilatçısı (NBO) kimi müşahidəçi üzv, 15 May 2025-ci il tarixli qərarı ilə isə tamhüquqlu üzv kimi təsdiq edilmişdir.
   - 1.4. Təşkilat komitəsi bu qaydalara dəyişikliklər etmək hüququnu özündə saxlayır; istənilən dəyişikliklər bebras.az internet saytının müvafiq bölməsində əksini tapdıqdan sonra qüvvəyə minmiş hesab olunur.
   - 1.5. Müsabiqə Azərbaycan Respublikasında təhsil alan məktəblilər arasında keçirilir və əsas məqsədləri aşağıdakılardır:
     - 1.5.1. Məktəblilər, müəllimlər və eyni zamanda valideynlər arasında informatika, alqoritmləşdirmə və əlaqəli sahələri təbliğ etmək;
     - 1.5.2. Müsabiqə vasitəsilə informatikaya həvəsi və potensialı olan şagirdləri aşkar etmək;
     - 1.5.3. Məktəblilərdə informatika sahəsinə maraq oyatmaq.
   - 1.6. Təhsil müəssisələrində müsabiqənin təşkilini koordinatorlar yerinə yetirir. Koordinatorların məsuliyyətləri bu qaydaların 7-ci maddəsində öz əksini tapmışdır.
   - 1.7. Qeydiyyatdan keçməmiş məktəblərin şagirdlərinin iştirakı üçün, təşkilat komitəsi əvvəlcədən müəyyən edilmiş məkanlarda müsabiqəyə qoşulma imkanı yarada bilər. Məsələn, həmin şagirdlər tərəfdaş qurumların inzibati binasında müsabiqəyə qoşula bilərlər.
2. Müsabiqə üçün qeydiyyat
   - 2.1. Müsabiqədə qeydiyyat dedikdə koordinatorların və şagirdlərin qeydiyyatı nəzərdə tutulur.
   - 2.2. Koordinatorların qeydiyyatı
     - 2.2.1. Koordinatorlar bebras.az saytı vasitəsilə qeydiyyat üçün müraciət edirlər.

2.2.2. Qeydiyyatdan öncə koordinatorlar `“Bebras” müsabiqəsində koordinatorluq` onlayn kursunu keçərək müsabiqə barədə geniş məlumat əldə edirlər. Kursu uğurla tamamlayanlar yoxlama nömrəsi ilə sertifikat əldə edirlər.

2.2.3. Qeydiyyata müraciət zamanı koordinatorlar ad, soyad, ata adı, çalışdıqları məktəb, e-poçt ünvanı, telefon nömrələrini və `“Bebras” müsabiqəsində koordinatorluq` kursundan əldə edilmiş verifikasiya nömrəsini daxil edirlər.

2.2.4. Təşkilat komitəsi müraciət edən koordinatorların göstərilən təhsil müəssisəsində çalışdıqlarını yoxlayır və müsbət olduğu təqdirdə qeydiyyata alırlar.

2.2.5. Qeydiyyata alındıqda müsabiqənin xüsusi kommunikasiya platformasına qoşulmaq üçün dəvətnamə linki göndərilir. Təşkilat komitəsi müzakirələr həmin platforma vasitəsilə aparılır.

2.2.6. Müraciətləri təsdiqlənmiş şəxslər həmin tarixdən etibarən müsabiqənin məktəb üzrə koordinatoru sayılırlar.

2.2.7. Əmək fəaliyyətini fərqli məktəbdə davam edən şəxslər təşkilat komitəsi ilə əlaqə saxlayaraq yeni məktəbin koordinatoru təyin edilə bilərlər.

2.3. Şagirdlərin qeydiyyatı

2.3.1. Şagirdləri müsabiqədə iştirak üçün qeydiyyata salmaq koordinatorların məsuliyyətidir.

2.3.2. Koordinatorlar şagirdləri qeydiyyata salarkən, şagirdin adı, soyadı, atasının adı və UTİS (Elm və Təhsil Nazirliyinin vahid təhsil informasiya sistemi üzrə unikal şagird identifikatoru) nömrəsi qeyd edilməlidir.

3. Müsabiqədə iştirak

3.1. Müsabiqədə iştirak hüququ dövlət hesabına maliyyələşən, və ya özəl orta məktəblərin 1-10-cu sinif şagirdlərinə (bundan sonra **iştirakçı**) verilir.

3.2. İnformatika müəllimliyi və aidiyyəti ixtisasda oxuyan ali məktəb tələbələri və təşkilat komitəsinin razılıq verdiyi digər şəxslər öyrənmə və sınaq məqsədi ilə müsabiqədənkənar iştirakçı ola bilərlər.

3.3. Müsabiqədənkənar iştirakçılar yarımfinal və final mərhələlərinə keçə bilməzlər.

3.4. İştirakçılar müsabiqədə fərdi şəkildə iştirak edirlər. Müsabiqə zamanı iştirakçılar arasında əməkdaşlıq və ya kömək qadağandır.

3.5. Müsabiqədə iştirak etmək və ya etməmək könüllülük prinsipi ilə, şagirdin və valideynin istəyi ilə müəyyən olunur. Heç bir şagird iştirak etmək üçün məcbur edilə bilməz.

3.6. İştirak etmək üçün xüsusi **istifadəçi adı** və **şifrə** iştirakçıya təhsil aldığı məktəbin koordinatoru tərəfindən verilir.

3.7. Şagirdlərin müsabiqəyə qoşulma vaxtı koordinator tərəfindən müəyyən edilir.

3.8. Müsabiqədə iştirak üçün şagirdlərdən ödəniş alınmır.

3.9. İştirakçı öz **istifadəçi adı** və **şifrə**sini özündə saxlaya bilər. Bu məlumatlardan istifadə etməklə, iştirakçı nəticələr elan edildikdən sonra öz nəticələrinə baxmaq hüququna malikdirlər.

3.10. Müsabiqə zamanı internet bağlantısı yalnız müsabiqə platforması üçün istifadə edilməlidir. İştirakçılara digər veb-səhifələrə keçid etmək və ya xarici mənbələrdən

istifadə etmək qadağandır. Bu maddəyə əməl olunması koordinatorun birbaşa məsuliyyətidir.

4. Müsabiqənin keçirilmə forması
   - 4.1. Müsabiqə hər akademik ildə, üç mərhələdə seçim mərhələsi, yarımfinal və final mərhələləri olaraq keçirilir.
   - 4.2. Müsabiqənin seçim mərhələsi Beynəlxalq “Bebras” İcması (“Bebras” Community) tərəfindən müəyyən edilmiş tarixlərə uyğun “Beynəlxalq “Bebras” Həftəsi” çərçivəsində keçirilməsi nəzərdə tutulur. Lakin, təşkilat komitəsi müsabiqənin vaxtında dəyişiklik etmək hüququnu özündə saxlayır. Vaxt dəyişikliyi Azərbaycandakı bayramlar, bir sıra tədbirlər, məktəblərdə tətil və bu zəmindən olan səbəblərə görə baş verir.
   - 4.3. Müsabiqənin qiymətləndirmə meyarları bu qaydaların 5-ci bəndində əks edilmişdir.
   - 4.4. Müsabiqənin seçim mərhələsi onlayn keçirilir və şagirdlər öz məktəblərindən və ya təşkilat komitəsi tərəfindən elan edilmiş məkanlardan iştirak edirlər.
   - 4.5. Müsabiqənin yarımfinal və final mərhələləri təşkilat komitəsi tərəfindən müəyyən edilmiş məkanlarda təşkilat komitəsinin müəyyən etdiyi şəxslərin nəzarəti ilə keçirilir.
   - 4.6. Müsabiqədə iştirak üçün iştirakçıya 40 dəqiqə vaxt verilir. Vaxtın hesablanması sualların görünməsindən sonra başlayır. Müsabiqəyə başlamazdan əvvəl iştirakçının sistemə daxil olması, təlimatlarla tanış olması, özü haqqında məlumatların daxil edilməsi zamanı vaxt hesablanmır.
   - 4.7. İştirakçının balları ”Bebras” Həftəsi bitdikdən sonra bir neçə saat ərzində avtomatik olaraq bu qaydaların 4-cü bəndinə uyğun olaraq hesablanır və dərhal elan edilir.
   - 4.8. Suallar Azərbaycan və İngilis dilində təqdim edilir. Şagirdlər müsabiqəyə başlayarkən iki dildən birini seçə bilər. Şagirdlər seçim mərhələsi, yarımfinal və final mərhələrində fərqli dilləri seçməkdə sərbəstdirlər.

5. **Qiymətləndirmə**
   - 5.1. Müsabiqədə suallar, sualların çətinlik dərəcələri hər sinif üçün müəyyən edilir. Məsələn, 1-ci sinif üçün çətin məsələ, 2 və ya 3-cü sinif üçün asan və ya orta çətinlikli məsələ kimi təyin edilə bilər.
   - 5.2. Məsələlər, test, açıq sual və interaktiv sual şəklində verilir.
   - 5.3. Məsələlər çətinlik dərəcəsinə görə üç qrupa - asan (A), orta (B), çətin (C) qruplarına bölünür.
   - 5.4. Müsabiqə başa çatdıqdan sonra nəticələr avtomatik olaraq hesablanır. Hesablama aşağıdakı qayda ilə aparılır:
     - 5.4.1. Hər bir **Asan** (A tipli) suala doğru cavab verdikdə şagird **6 bal** əldə edir;
     - 5.4.2. Hər bir **Orta** (B tipli) suala doğru cavab verdikdə şagird **9 bal** əldə edir;
     - 5.4.3. Hər bir **Çətin** (C tipli) suala doğru cavab verdikdə şagird **12 bal** əldə edir;
     - 5.4.4. **Şagird Asan** (A tipli) suala doğru cavab vermədikdə **2** bal çıxılır;
     - 5.4.5. **Şagird Orta** (B tipli) suala doğru cavab vermədikdə **3** bal çıxılır;
     - 5.4.6. **Şagird Çətin** (C tipli) suala doğru cavab vermədikdə **4** bal çıxılır;
     - 5.4.7. Həvəsləndirmə məqsədi ilə hər bir iştirakçıya öncədən **45** bonus bal əlavə olaraq verilir. 45 bonus bal şagirdləri təşviq etmək və mənfi balların nəticəyə həddən artıq təsirini azaltmaq məqsədi ilə verilir.

5.5. Siniflər üzrə məsələ sayı və çətinlik dərəcəsi aşağıdakı kimidir:
   5.5.1. 1-ci sinif: 3 asan məsələ, 3 orta, 3 çətin məsələ, ümumi 9 məsələ.
   5.5.2. 2-ci sinif: 3 asan məsələ, 3 orta, 3 çətin məsələ, ümumi 9 məsələ.
   5.5.3. 3-cü sinif: 4 asan məsələ, 4 orta, 4 çətin məsələ, ümumi 12 məsələ.
   5.5.4. 4-cü sinif: 4 asan məsələ, 4 orta, 4 çətin məsələ, ümumi 12 məsələ.
   5.5.5. 5-ci sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.
   5.5.6. 6-cı sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.
   5.5.7. 7-ci sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.
   5.5.8. 8-ci sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.
   5.5.9. 9-cu sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.
   5.5.10. 10-cu sinif: 5 asan məsələ, 5 orta, 5 çətin məsələ, ümumi 15 məsələ.

5.6. Siniflər üzrə maksimal ballar aşağıdakı kimidir:
   5.6.1. 1-ci sinif: 126 bal
   5.6.2. 2-ci sinif: 126 bal
   5.6.3. 3-cü sinif: 153 bal
   5.6.4. 4-cü sinif: 153 bal
   5.6.5. 5-ci sinif: 180 bal
   5.6.6. 6-cı sinif: 180 bal
   5.6.7. 7-ci sinif: 180 bal
   5.6.8. 8-ci sinif: 180 bal
   5.6.9. 9-cu sinif: 180 bal
   5.6.10. 10-cu sinif: 180 bal

5.7. Məsələlərin hansının çətin, orta və ya asan olduğu şagirdlərə əvvəlcədən göstərilmir.

5.8. Müsabiqə zamanı hər hansı bir sualda sonradan səhv aşkar olunarsa, nəticələr hesablanarkən o sual bütün iştirakçılar üçün ləğv edilir və ümumi nəticəyə təsir göstərmir.

5.9. Yekun bal bu düsturla hesablanır, *yekun bal = (doğru cavablar üzrə toplanan bal – səhv cavabların çıxılan balları) + 45 bonus bal.*

5.10. Yarımfinal və final mərhələsinə vəsiqənin qazanılması bu qaydaların 6-cı bəndi ilə tənzimlənir.

## 6. Yarımfinal və final mərhələsi

6.1. Beynəlxalq “Bebras” həftəsi seçim mərhələsi sayılır.

6.2. Yarımfinal mərhələsinə keçid balı aşağıdakı qayda ilə hesablanır.
   6.2.1. Əvvəlcə hər bir sinif üzrə mümkün maksimal balın 70%-i və daha çoxunu toplamış şagirdlər seçilir.
   6.2.2. Seçilən şagirdlər arasında ən çox bal toplamış şagirdin balının 90%-i və daha çoxunu toplamış şagirdlər yarımfinal mərhələsinə keçir.

6.3. Final mərhələsinə keçid balı aşağıdakı qayda ilə hesablanır
   6.3.1. Yarımfinal mərhələsində hər sinif üzrə ən çox bal toplamış 10 nəfərin final mərhələsinə keçməsi nəzərdə tutulur.
   6.3.2. Sıralamada 10-cu yer ilə bərabər balı toplamış şagirdlər olarsa onlar da eyni balı topladıqlarına görə final mərhələsinə keçir. Məsələn, 10-cu, 11-ci və

12-ci yerdə duran şagirdlərin balı 120-dirsə onların hər biri finala vəsiqə qazanır.

6.4. Final mərhələsində ən çox bal toplamış ilk üç yer qalib hesab olunur. Eyni balı toplayanlar eyni yeri tutur. Məsələn, əgər ilk sıralamada 9 nəfərdən əgər 2 nəfər 126 bal toplayıbsa, 3 nəfər 120, 4 nəfər isə 110 bal toplayıbsa o zaman 126 bal toplayanlar 1-ci yer, 120 bal toplayanlar 2-ci, 110 bal toplayanlar isə 3-cü yeri tutmuş olur.

6.5. Final qaliblərinin təltifolunması üçün mükafatları təşkilat komitəsi, tərəfdaş təşkilatlar və sponsorlarla olan razılaşma əsasında müəyyən edilir.

6.6. Yarımfinal və final mərhələsi zamanı şagirdlərin çalışdıqları kompüterlərdə texniki nasazlıq aşkarlanarsa bu barədə şagirdlər dərhal nəzarətçilərə bildirməlidirlər və şagirdlərin şikayəti əsaslı olarsa şagird iştirak üçün başqa kompüterə yerləşdirilir və vaxt sıfırlanır.

6.7. Texniki nasazlıq ilə bağlı nəzarətçilərə bildirilmədikdə sonradan bu səbəb ilə bağlı şikayətlərə baxılmır.

7. Koordinatorların hüquq və məsuliyyətləri

7.1. Koordinatorlar işlədikləri təhsil müəssisəsində müsabiqə ilə bağlı səlahiyyətli şəxslərdirlər. Onlar müsabiqənin keçirilməsində mühüm rol oynayır və məsuliyyət daşıyırlar.

7.2. Koordinator adətən məktəbin informatika müəllimi olur. İnformatika müəlliminin könüllü olaraq bu işi yerinə yetirmək istəyi olmadıqda məktəbin digər əməkdaşı koordinator ola bilər.

7.3. Bir məktəbdə bir neçə koordinator ola bilər və bu say ilə bağlı heç bir məhdudiyyət mövcud deyil.

7.4. Eyni şəxs bir neçə məktəbdə çalışırsa o zaman o çalışdığı hər bir məktəbin koordinatoru ola bilər. Belə olduqda, hər bir məktəbə uyğun olaraq qeydiyyatdan keçməlidir. Texniki məhdudiyyətlər səbəbindən koordinator hər məktəb üçün fərqli e-poçt ünvanı istifadə etməlidir.

7.5. Müsabiqənin təhsil müəssisəsində təşkil olunması, texniki təminatın ayrılması, müsabiqə üçün vaxt bölgüsü və bu zəmindən olan işlər koordinatorun ixtiyarına buraxılır. Texniki təminatla bağlı təhsil müəssisəsinin daxilində hər hansı bir məsələyə təşkilat komitəsinin müdaxilə etmək kimi bir hüququ yoxdur.

7.6. Koordinatorlar müsabiqəni təhsil müəssisəsinin inzibati binası daxilində istənilən yerdə, kabinet və ya auditoriyada keçirə bilər. Müvafiq proqram təminatı olan istənilən qurğudan (stolüstü kompüter, noutbuk, planşet, smartfon və s.) istifadə etmək olar.

7.7. İştirakçılara istifadəçi adı və ya şifrələrin paylanması koordinator tərəfindən həyata keçirilir. Bunun üçün koordinator müvafiq təlimata uyğun istifadəçi adı və şifrələri əldə edib şagirdlərə təqdim edir.

7.8. Müsabiqə zamanı hər hansı bir texniki problem səbəbindən və bu zəmindən olan fors-major hadisələr səbəbindən (məsələn, kompüterlərdə texniki nasazlıq, internet əlaqəsində problemlər, elektrik xətlərində nasazlıqlar və s.) şagirdin iştirakında məhdudiyyətlər olarsa, koordinatorlar həmin şagirdə yenidən iştirak üçün imkan yaratmaq hüququna sahibdirlər.

7.9. Müsabiqə bitdikdən sonra iştirakçıların adlarında olan səhvlərin düzəldilməsi koordinatorlar tərəfindən yerinə yetirilir. Bu yalnız böyük və ya kiçik hərflər, transliterasiya və digər mexaniki səhvlərin düzəldilməsi üçün nəzərdə tutulmuşdur.

7.10. Koordinatorlar tərəfindən hər hansı bir qayda pozuntusu aşkar olunarsa, təşkilat komitəsi həmin koordinatorun çalışdığı təhsil müəssisəsinin bütün və ya ayrı-ayrı şagirdlərinin nəticələrini ləğv etmək hüququna malikdir.

8. Mükafatlandırma

8.1. Müsabiqədə iştirak etmiş hər bir şagirdə topladığı baldan asılı olmayaraq iştirak haqqında sertifikat verilir.

8.2. Müsabiqə bitdikdən sonra koordinatorlar sertifikatları iştirakçılara çap olunmuş və ya elektron şəkildə təqdim edir. Sertifikatlar üçün heç bir halda şagirdlərdən ödəniş tələb edilə bilməz. Sertifikatların çapı üçün xərclər təhsil müəssisəsi tərəfindən ödənilə bilmədiyi halda sertifikatlar şagirdlərə elektron şəkildə tədqim edilməlidir.

8.3. Koordinatorlar, təhsil müəssisəsinin rəhbərliyi və ya öz təşəbbüsləri ilə mükafatlandırma təşkil etməkdə, şagirdləri topladıqları ballara, siniflər üzrə və ya istənilən digər kriteriyalar üzrə əlavə təltiflər etməkdə sərbəstdirlər.

8.4. Yarımfinal və final mərhələlərinin qalibləri və iştirakçıları üçün fəxri fərmanlar təşkilat komitəsi tərəfindən verilir. Təşkilat komitəsinin istəyi ilə, cari imkanlardan asılı olaraq, digər hədiyyələrin də təqdim edilməsi məsələsinə baxılması istisna edilmir. Bu detallar bu qaydaların 6-cı maddəsi ilə tənzimlənir.

8.5. Təşkilat komitəsinin, koordinatorlara və müsabiqənin təşkil edilməsində köməklik göstərmiş, dəstək vermiş şəxslərə fəxri fərmanların verilməsi hüququ vardır. Bu, təşkilat komitəsinin qərarı əsasında həyata keçirilir.